**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№367/5** **30 iyul 2024-cü il**

**Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartlar ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 3.1-ci "Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartlar ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri" bəndinin, Palata sədrinin "600 saylı (düzəliş edilmiş) "Xüsusi Mülahizələr – Qrup Maliyyə Hesabatlarının Auditi (o cümlədən bölmə auditorlarının işi) Beynəlxalq Audit Standartının tərcüməsi, redaktəsi və tətbiqi barədə" 2024-cü il 26 aprel tarixli 1/15 nömrəli və "2024-cü ilin may ayı üzrə "Beynəlxalq Peşəkar qurumların yenilikləri və audit sahəsində dünyada baş verən diqqətəlayiq peşə xəbərlərinə dair hazırlanmış icmal-məlumat barədə" 2024-cü 28 iyun tarixli 1/23 nömrəli sərəncamlarının icrasını təmin etmək məqsədilə bu sahədə görülmüş işlərə dair Aparatın rəhbəri Q.Bayramovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartlar ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri ilə əlaqədar görülmüş işlərə dair Aparatın rəhbəri Q.Bayramovun məruzəsi nəzərə alınsın (arayış əlavə olunur).

2. Palata sədrinin 2024-cü il 26 aprel tarixli 1/15 nömrəli sərəncamının 2-ci bəndində 600 saylı BAS-ın İnglis dilindən Azərbaycan dilinə tərcüməsinin və 3-cü bəndində BAS-ın peşə redaktəsinin (N.Talıbov, N.Abbsov) 3 ay müddətində, 5-ci bəndində BAS-ın elektron qaydada auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi və Palatanın saytında yerləşdirilməsinin (Z.Almazov) iki həftə müddətində, 7-ci bəndində keyfiyyətə kənar nəzarət üzrə müfəttişlər monitorinq apararkən auditorlar tərəfindən BAS-ın tələblərinə düzgün riayət edilməsinə daimi olaraq diqqət etmələrinin icrasını təmin etsinlər.

3. Palata sədrinin müşaviri F.Qarayevə tapşırılsın ki, iki ay müddətində Palata sədrinin 2024-cü il 28 iyun tarixli 1/23 nömrəli sərəncamının 1-ci bəndində aşağıdakı sənədlərin ingilis dilindən Azərbaycan dilinə tərcümə olunması üçün Beynəlxalq Mühasiblər Federasiyasından (IFAC) icazə alınması ilə bağlı tədbirlərin görülməsini təmin etsin:

3.1. BAS 700 (yenidən işlənmiş) "Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" və BAS 260 (yenidən işlənmiş) "İdarəetmə məsuliyyətli şəxslərlə əlaqələr";

3.2. Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə);

3.3. "Yekun bəyanat: kodeksdə siyahıya daxil olunmuş müəssisə və ictimai əhəmiyyətli müəssisə anlayışlarına düzəlişlər".

3.4. Məsul şəxslərə (S.Gülməmmədov, Q.Bayramov, N.Talıbov) tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən standartların redaktəsi, nəşri, tətbiqi və təşviqi ilə bağlı tədbirlərin Auditorlar Palatasının 2025-ci il üzrə iş planına daxil olunması təmin edilsin.

4. Beynəlxalq Audit Standartları və beynəlxalq təşkilatlarla iş üzrə şöbəyə (N.Talıbov, N.Əlisoy) tapşırılsın ki, Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartlar ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri ilə əlaqədar görülmüş işlər barədə məlumatların Auditorlar Palatasının 2024-cü il üzrə IFAC-a təqdim etdiyi Fəaliyyət Planında əks etdirilməsi təmin edilsin.

5. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**